# Azərbaycan Respublikası və Rusiya Federasiyasının Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında Birgə Bəyanatının təsdiq edilməsi haqqında

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası və Rusiya Federasiyasının Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında 2001-ci il yanvarın 9-da Bakı şəhərində imzalanmış Birgə Bəyanatı təsdiq edilsin.

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 2 fevral 2001-ci il***

***№ 66-IIQ***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (14 fevral 2001-ci il, № 36) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (28 fevral 2001-ci il, № 2, maddə 84) («VneshExpertService» LLC).***

---

# Azərbaycan Respublikası və Rusiya Federasiyasının Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında Birgə Bəyanatı

Azərbaycan Respublikasının Prezidenti H.Ə. Əliyev və Rusiya Federasiyasının Prezidenti V.V. Putin 9 yanvar 2001-ci ildə Bakı şəhərində Azərbaycan Respublikası və Rusiya Federasiyasının Xəzər dənizində əməkdaşlığına dair məsələləri müzakirə edərək;

> belə əməkdaşlığın mehriban qonşuluq, qarşılıqlı anlaşma və qarşılıqlı hörmət ruhunda inkişafına səy göstərərək;
>
> 3 iyul 1997-ci il tarixli Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilənin prinsiplərini rəhbər tutaraq;
>
> sahilyanı dövlətlərin iqtisadi inkişafı üçün Xəzər dənizinin mühüm həyati əhəmiyyətini qeyd edərək;

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qarşılıqlı hörmət əsasında və sahilyanı dövlətlərin suveren hüquqları nəzərə alınmaqla Xəzəryanı dövlətlər arasında qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsinə tərəfdar çıxaraq və Xəzərin mineral ehtiyatlarının mənimsənilməsi üzrə beynəlxalq əməkdaşlığın inkişafını dəstəkləyərək;

Xəzər dənizinin ətraf mühitinin qorunması üçün öz məsuliyyətlərini dərk edərək;

Xəzərin müstəsna olaraq dinc məqsədlər üçün istifadəsinə dair mövqeyi təsdiq edərək;

əmin olaraq ki, Xəzər dənizi sülh və dostluq zonası olmalıdır və Xəzərə aid olan bütün məsələlər yalnız dinc vasitələrlə həll edilməlidir;

26 fevral 1921-ci ildə imzalanmış Rusiya Sosialist Federativ Sovet Respublikası ilə İran arasında Müqaviləyə və 25 mart 1940-cı ildə imzalanmış Sovet Sosialist Respublikaları İttifaqı ilə İran arasında Ticarət və Dənizçilik haqqında Müqaviləyə istinad edərək və Xəzərdə təşəkkül tapmış təcrübəni nəzərə alaraq;

beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına əsaslanaraq,

aşağıdakıları bildirirlər:

1. Azərbaycan Respublikası və Rusiya Federasiyası təsdiq edir ki, Xəzərin yeni hüquqi statusunun işlənib hazırlanması Xəzəryanı dövlətlərin öz işidir və belə status yalnız onların ümumi razılığı əsasında hazırlana bilər.

2. Tərəflər Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya üzrə beştərəfli danışıqlar prosesinin fəallaşdırılmasına birgə köməklik göstərməyə hazır olduqlarını bildirir, Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində Xüsusi işçi qrupun fəaliyyətinə müntəzəm xarakter verilməsinə tərəfdar çıxırlar.

3. Azərbaycan Respublikası və Rusiya Federasiyası hesab edir ki, Xəzərin yeni hüquqi statusu məsələsinə dair Xəzəryanı dövlətlərin mövqelərində əhəmiyyətli fikir ayrılıqlarının saxlandığı şəraitdə, onun konsensusla həllinə mərhələlərlə irəliləmək lazımdır. Birinci mərhələdə bərabər uzaqlıqda yerləşən nöqtələr nəzərə alınmaqla çəkilən və Tərəflərin razılığı ilə modifikasiya edilən orta xətt metodu əsasında, həmçinin beynəlxalq hüququn ümumtanınmış prinsiplərini və Xəzərdə təşəkkül tapmış təcrübəni nəzərə alaraq Xəzər dənizi dibinin müvafiq həmhüdud və qarşı dövlətlər arasında sektorlara/zonalara bölünməsi təklif olunur. Tərəflər razılaşdılar ki, hər bir sahilyanı dövlətin belə bölgü nəticəsində yaranmış sektorunda/zonasında dəniz dibində mineral ehtiyatlara və digər hüquqa uyğun təsərrüfat-iqtisadi fəaliyyətə münasibətdə müstəsna hüquqlar tanınacaqdır.

4. Xəzərdə pisləşən ekoloji vəziyyəti, o cümlədən onun nərə balığı populyasiyasının ağır vəziyyətini nəzərə alaraq, Tərəflər razılaşdılar ki, balıqçılıq və Xəzər dənizinin təbii mühitinin qorunması məsələlərinə baxılmasını sürətləndirsinlər.

Hər iki Tərəf Xəzər dənizinin təbii mühitinin vəziyyətinin monitorinqi ilə məşğul olacaq beştərəfli Xəzər mərkəzinin yaradılmasına tərəfdar çıxdı.

5. Xəzərin hüquqi statusunun digər elementlərinin növbəti mərhələlərdə müzakirə edilməsi nəzərdə tutulur.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

6. Azərbaycan Respublikası və Rusiya Federasiyası hesab edir ki, lazımi hazırlıqdan sonra beş sahilyanı dövlətin yüksək səviyyəli görüşünün keçirilməsi Xəzər regionunda əməkdaşlığın möhkəmləndirilməsi, Xəzər dənizi statusunun nizama salınması maraqlarına cavab verə bilərdi.

Bakı şəhərində 9 yanvar 2001-ci ildə Azərbaycan və rus dillərində iki həqiqi nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

***Azərbaycan Respublikasının Prezidenti***
***H.Ə. ƏLİYEV***

***Rusiya Federasiyasının Prezidenti***
***V.V. PUTİN***

---

© *VneshExpertService LLC*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional